# Məhəmmədhüseyn Şəhriyarın “Heydərbabaya Salam” poeması (TAM MƏTN)

**Ələddin MƏLİKOV (Aladdin MALIKOV)**

Fəlsəfə üzrə elmlər doktoru, Dosent

AMEA, Elm Tarixi İnstitutu,

Azərbaycan İlahiyyat İnstitutu,

https://orcid.org/0000-0001-5830-6764
aladdin.malikov@mail.ru

Ə.Fərdinin verdiyi məlumata əsasən, Ustad şair seyid Məhəmmədhüseyn Şəhriyar (1906-1988) poemanın ilk hissəsini Tehranda, ikinci hissəsini isə Təbrizdə yazmışdır. poemanın ilk hissəsini 1952-ci ildə bitirmişdir. 1952-ci ildə anasının vəfatından sonra o Tehranı tərk edərək, Təbrizdə yaşamağa qərar verir. Ehtimal edilir ki, ikinci hissəsini 1954- cü ildə Təbrizdə bitirmişdir. Poema müxtəlif cəhətlərdən çox maraq doğurur. Öz dövründə də xalq üçün maraqlı olduğundan dillər əzbəri olmudur. Qeyd etmək yerinə düşər ki, bu poema 1955-ci ildə Türkiyədə “AZERBAYCAN” aylık kültür dergisinin yanvar-fevral sayında işıq üzü görmüşdür.


AZERBAYCAN

AYLIK KÜLTÜR DERGİSİ

Yıl : 4 — OCAK - ŞUBAT/1955 — Sayı : 10 - 11 (34 - 35)

İÇİNDEKİLER

Mücadelede Sarahat ........ ★
Azerbaycan Cumhuriyetinin Büyük Devletler tarafından tanınması ........ M. E. Resulzade
Azerbaycan'da Azadlık Yoktur ........ Mirza Bala
Kalmasın o matem gözlerinde ........ Kerim Yaycılı
İstiklâlimizin Tanınması ........ Mirza Bala
Azerbaycan İstiklâl Savaşından Sahneler ........ A. Vahap Yurtsever
Mirza Fethali Ahuntzade ........ M. E. Resulzade
Uçurum (Manzum Piyes) ........ Hüseyin Cavit
Azerbaycan Mimarî Anıtları ........ M. E. Resulzade
Hacı Tağı (Hikâye) ........ K. Yaycılı
Azerbaycan Parlâmentosu ........ ★
Heyder Baba'ya Selâm ........ Şehriyar
Rical-i Azerbaycan Der Asr-i Meşrutiyet ........ M. E. Resulzade
Dernek Hayatı ........ ★
Haberler ........ ★

# “HEYDƏRBABAYA SALAM” POEMASI[1]

## Birinci hissə

1. Heydərbaba, ildırımlar şaxanda,[2]
Sellər-sular şaqqıldayıb axanda,
Qızlar ona səf bağlayıb baxanda,
Salam olsun şövkətizə, elizə,
Mənim də bir adım gəlsin dilizə.

2. Heydərbaba, kəhliklərin uçanda,
Kol dibindən dovşan qalxıb qaçanda,
Baxçaların çiçəklənib açanda,
Bizdən də bir mümkün olsa yad elə,
Açılmayan ürəkləri şad elə.

3. Bayram yeli çardaxları yıxanda,
Novruzgülü, qarçiçəyi[3] çıxanda,
Ağ buludlar köynəklərin sıxanda,
Bizdən də bir yad eləyən sağ olsun,
Dərdlərimiz qoy dikkəlsin, dağ olsun.

4. Heydərbaba, gün dalıvı dağlasın,
Üzün gülsün, bulaqların ağlasın,
Uşaqların bir dəstə gül bağlasın,
Yel gələndə, ver gətirsin bu yana,
Bəlkə mənim yatmış bəxtim oyana.

---

[1] - Ustad Seyid Məhəmmədhüseyn Şəhriyar, Divan- Türki, Bakı, Əlhuda nəşriyyatı, 1993 (ISBN 5-86106-005-3). Kitabın tərtibçisi, ön söz yazarı və haşiyələri *Əsğər Fərdi* tərəfindən edilmişdir. Redaktoru və transliterasiya edəni *Hafiz Xeyrullaoğlu*dur. “Heydərbabaya Salam” poemasının haşiyələrini fars dilindən akad. *Teymur Kərimli* tərcümə etmişdir.

[2] - **Heydərbaba**- Bir kənd dağının adıdır. Bu şeirdə maraciət obyekti, şahid və qayə seçilmişdir.

[3] - **Novruzgülü** və **Qarçiçəyi** iki gözəl güldür. Yazın əvvəlində qarın altında və daşların arasından baş qaldırır. Birincisi bənövşəyi rəngli və gəlin kimi utancaq, ikincisi ağ rəngli, aşıq kimi şuxdur.

5. Heydərbaba, sənin üzün ağ olsun,
Dört bir yanın bulaq olsun, bağ olsun,
Bizdən sora sənin başın sağ olsun,
Dünya qəzov- qədər, ölüm- itimdi,
Dünya boyu oğulsuzdu, yetimdi.

6. Heydərbaba, yolum səndən kəc oldu,
Ömrüm küçdi, gələnmədim, gec oldu,
Heç bilmədim gözəllərin necoldu,
Bilməz idim döngələr var, dönüm var,
İtginlik var, ayrılıq var, ölüm var.

7. Heydərbaba, igid əmək itirməz,
Ömür keçər, əfsus, bərə bitirməz,
Namərd olan ömrü başa yetirməz,
Biz də, vallah, unutmarıq sizləri,
Görənməsək, halal edin bizləri.

8. Heydərbaba, Mir Əjdər səslənəndə,[1]
Kənd içində səsdən- küydən düşəndə,
Aşıq Rüstəm sazın dilləndirəndə,[2]
Yadındadır nə hövləsək qaçardım?
Quşlar təkin qanad çalıb uçardım.

9. Şəngilava[3] yurdu, aşıq alması[4]
Gahdan gedib orda qonaq qalması,
Daş atması, alma- heyva salması,
Qalıb, şirin yuxu kimi yadımda,
Əsər qoyub ruhumda, hər zadımda.

---

[1] - **Mir Əjdər-** məşhur bir çavuşun adıdır.
[2] - **Aşıq Rüstəm-** məşhur bir xanəndə və çalğıçının adıdır.
[3] - **Şəngilabad-** gözəl bağ- bağatları olan kənddir.
[4] - **Aşıq alması-** yarısı qırmızı, yarısı sarı olan bir növ almadır.

10.Heydərbaba, Quru gölün qazları,[1]
Gədiklərin sazax çalan sazları,
Kət- gövşənin payızları, yazları,
Bir sinema pərdəsidir gözümdə,
Tək oturub, seyr edərəm özümdə.

11.Heydərbaba, Qərəçəmən cadası,
Çovuşların gələr səsi, sədası,
Kərbəlaya gedənlərin qadası,
Düşsün bu ac, yolsuzların gözünə,
Təməddünün uyduq yalan sözünə.

12.Heydərbaba, şeytan bizi azdırıb,
Məhəbbəti ürəklərdən qazdırıb,
Qara günün sərneveştin yazdırıb,
Salıb xəlqi bir- birinin canına,
Barışığı bələşdirib qanına.

13.Göz yaşına baxan olsa, qan axmaz,
İnsan olan, xəncər belinə taxmaz,
Amma heyif, kor tutduğun buraxmaz,
Behiştimiz cəhənnəm olmaqdadır,
Zilhəccəmiz Məhərrəm olmaqdadır.

[1] - **Quru göl-** məşhur Şibli dolayının altında, Tehran şossesinin kənarında olan böyük bir göldür. İlin müəyyən vaxtlarında vəhşi qazlar, ördəklər uçuşub gələndə əzəmətli bir görkəm alır. Yayda suyunun çoxu çəkildiyindən Qurugöl adlanır.

14.Xəzan yeli yarpaqları tökəndə,
Bulud dağdan yenib kəndə çəkəndə,
Şeyxül- İslam gözəl səsin çəkəndə,[1]
Nisgilli söz ürəklərə dəyərdi,
Ağaclar da Allaha baş əyərdi.

15.Daşlı bulaq daş- qumunan dolmasın,[2]
Baxçaları saralmasın, solmasın,
Ordan keçən atlı susuz olmasın,
Deynə, bulaq, xeyrin olsun, axarsan,
Üfüqlərə xumar- xumar baxarsan.

16.Heydərbaba, dağın, daşın sərəsi,
Kəhlik oxur, dalısında fərəsi,
Quzuların ağı, bozu, qərəsi,
Bir gedəydin dağ- dərələr uzunu,
Oxuyaydım: "Çoban, qaytar quzunu"...[3]

17.Hedərbaba, sulu yerin düzündə,[4]
Bulaq qaynar çay- çəmənin gözündə,
Bulaqotu üzər suyun üzündə,[5]
Gözəl quşlar ordan gəlib keçərlər,
Xəlvətləyib bulaqdan su içərlər.

---

[1] - **Şeyxül İslam-** aydın fikirli ruhani vaiz, həmin yerin hörmətli adamlarındandır. Cavanlıqda gözəl səsi olmuş və onun minacatı lazımi yerdə Allahın hökmündən xəbər verərdi.
[2] - **Daşlı bulaq-** bulaq adıdır.
[3] - **Çoban, qaytar quzunu…** Şirin məhəlli nəğmələrdən biri idi.
[4] - **Sulu yerin düzü-** yer adıdır.
[5] - **Bulaqotu**- bulaqların kənarında göyərib suyun üzərində üzən ətirli bir otdur.

18.Biçin üstü sünbül biçər oraqlar,
Elə bil ki, zülfü darar daraqlar,
Şikarçılar bildirçini soraqlar,
Biçinçilər ayranların içərlər,
Bir huşlanıb, sondan durub biçərlər.

19.Hedərbaba, kəndin günü batanda,[1]
Uşaqların şamın yeyib yatanda,
Ay bulutdan çıxıb qaş- göz atanda,
Bizdən də bir sən onlara qissə de,
Qissəmizdə çoxlu qəmü qüssə de.

20.Qarı nənə gecə nağıl deyəndə,[2]
Külək qalxıb qap- bacanı döyəndə,
Qurd keçinin Şəngülüsün yeyəndə,
Mən qayıdıb bir də uşaq olaydım,
Bir gül açıb, ondan sora solaydım.

21.Əmməcanın bal bəlləsin yeyərdim,[3]
Sondan durub üs donumu geyərdim,
Baxçalarda tiringəni deyərdim,[4]
Ay özümü o əzdirən günlərim,
Ağac minib, at gəzdirən günlərim...

---

[1] - Bir qayda olaraq kənd uşaqları axşam düşüb şam yeyəndən sonra yatmağa gedəndə böyüklərdən xahiş edərdilər ki, onlara nağıl və hekayə danışsınlar. Şirin əfsanələrin laylayı altında yuxuya gedərdilər.
[2] - Qış gecələri vıyıldayan külək- baran qapı pəncərələri bir- birinə vuranda kənd qarıları uşaqlara qurdla keçinin nağılını danışırlar. Sehirlənmiş uşaqlar da qulaq asırlar ki, qurd necə gəlib Şəngülü, məngülü və oğlağı aparacaq.
(farsca: qazı loğması) çörəyin arasına yağ- bal qoyub bürmələyirlər. Uşaqların əlinə verirlər ki, dişləyib yesinlər.
[3] - "**Bəllə"** (Farsca: qazı loğması)- çörəyin arasına yağ- bal qoyub bürmələyir və uşaqların əlinə verirlər ki, yesinlər.
[4] - **Tiringə-** təsnif və zərb muğamlarına deyirlər.

22.Həçi xala çayda paltar yuvardı,[1]
Məmmədsadıq damlarını suvardı,
Heç bilməzdik dağdı, daşdı, duvardı,
Hər yan gəldi, şıllaq atıb aşardıq,
Allah, nə xoş, qəmsiz- qəmsiz yaşardıq!

23.Şeyxül- İslam münacatı deyərdi,
Məşəd Rəhim ləbbadəni geyərdi,
Məşd hacəli bozbaşları yeyərdi,[2]
Biz xoşuduq xeyrat olsun, toy olsun,
Fərq eləməz, hər nolacaq, qoy olsun.

24.Məlik Niyaz verəndilin salardı,[3]
Atın çapıb qıyğacıdan çalardı,
Qırğı təkin gədik başın alardı.
Dolayəya qızlar açıb pəncərə,
Pəncərələrdə nə gözəl mənzərə!

25.Heydərbaba, kəndin toyun tutanda,[4]
Qız- gəlinlər həna, piltə satanda,
Bəy gəlinə damdan alma atanda[5]
Mənim də o qızlarında gözüm var,
Aşıqların sazlarında sözüm var.

---

[1] - **Həçi xala-** Həcər adının qısaldılmış formasıdır.
[2] - Mərhum **Məşədi Rəhim** və **Məşədi Hacəli** kəndin sayılıb seçilən ağsaqqallarından idilər. Məşədi Rəhimin ləbbadə geyməsi onun bilikli adam olmasına dəlalət edir. Məşədi hacəli qüvvətli və şux bir adam idi, xalqın dərdinə qalardı.
[3] - **Məlik Niyaz xan-** həmin yerin xanlarından yaxşı atsürən və atıcı bir adam idi.
[4] - Toy mərasimlərindən biri belə idi: işıqlıq və şadlıq əlaməti olan bir dəstə fitil və bir kasa xınanı bir siniyə qoyub qızların əlində dövr elətdirərdilər. Toya çağırılanların hər biri bir fitil və bir az xına götürüb yerinə öz imkanına görə pul qoyardı. Həmin pullar gəlini bəzəyən məşşatəyə çatardı.
[5] - Başqa bir toy mərasimi belə idi: gəlini ata mindirən zaman bəy damın üstündə durub əvvəldən bir neçə yerindən kəsilmiş almanı var gücü ilə gəlinin ayağının altına çırpardı. Alma yerə dəyib parçalanardı. Alma doymaq əlaməti olduğundan, bununla bəy gəlinə demək istəyirdi ki, heç vaxt bir- birimizdən doymayacağıq.

26. Heydərbaba, bulaqların yarpızı,[1]
Bostanların gülbəsəri, qarpızı,
Çərçilərin ağ nabatı, saqqızı,
İndi də var damağımda, dad verər,
İtgin gedən günlərimdən yad verər.

27. Bayram idi, gecəquşu oxurdu,
Adaxlı qız bəy corabın toxurdu,
Hər kəs şalın bir bacadan soxurdu,[2]
Ay nə gözəl qaydadı şal sallamaq,
Bəy şalına bayramlığın bağlamaq.

28. Şal istədim mən də, evdə ağladım,[3]
Bir şal alıb tez belimə bağladım,
Qulamgilə qaşdım, şalı salladım,
Fatma xala mənə corab bağladı,
Xan nənəmi yada salıb ağladı.

---

[1] - **Yarpız**- farsca "punə" dir. "Qole- pune nə na pune" mahnısı onun haqqındadır. Yazın pryki, ətirli və gözəl otlardan biridir. Hal əhlləri yanında kövrək xatirələr mənbəyidir. Xüsusən bulaq kənarlarında təzə pendir- çörəklə yeyiləndə verdiyi ləzzət təsvirəgəlməzdir.

[2] - Kəndli evlərində evin ortasında baca qoyurlar ki, təndirin tüstüsü ordan çıxsın. Ancaq bəzən həmin bacadan başqa məqsədlərlə də istifadə olunur: bunlardan biri adaxlıbazlıqdır ki, onun xüsusiyyətlərini "Gecənin əfsanəsi" hissələrindən birində (kəndlinin adaxlıbazlığı) təsvir etmişəm. Digəri- Novruz bayramı günlərində şal salmaqdır.
Çərşənbə gecəsi bəzi adamlar özünü tanıtmadan evlərin damına çıxıb öz rəngbərəng şallarını sallayırlar. Yəni ki, bayramlıq istəyirəm. Ev sahibi öz fərasətinə uyğun olaraq şal sahibini tanımalı, öz imkanına uyğun və şal sahibinə layiq bayam payını şalın ucuna bağlamalıdır. O zamanın bayramlığı çox vaxt güllü corablar, ipək dəsmallar, uşaq fışqırağı, gözəl toyuq- cücələri, boyanmış yumurta, çərəz və şirniyyat və s. olardı. Bu adət əksərən kasıb uşaqları əyləndirmək, onların könlünü almaq məqsədi güdsə də, dövrün şən mərasimlərindən idi.

[3] - Həmin il mənim nənəm **Xanım nənə** rəhmətə getmişdi və biz bayram keçirtməməliydik. Ancaq mən uşaq olduğumdan, inadıma salıb bir şal götürdüm və oyun yoldaşım **Qulam** xaloğlugilin damlarına qaçdım. Qulamın anası rəhmətlik **Fatma xala** hiss etdi ki, bu mənəm. Şalıma bir cüt güllü corab bağlaya- bağlaya məni yetim qoymuş Xanım nənəmi yada salıb gözündən yaş tökdü. O zaman bir kəndli qadının səmavi surəti unudulmaz bir tablo kimi xatirimdə əbədi iz qoydu.

29. Heydərbaba, Mirzəmmədin bağçası,[1]
Baxçaların turşaşirin alçası,
Gəlinlərin düzmələri, taxçası,
Hey düzülər gözlərimin rəfində,
Xeymə vurar xatirələr səfində.

30. Bayram olub, qızıl palçıq əzərlər,
Naxış vurub otaqları bəzərlər,
Taxçalara düzmələri düzərlər,
Qız- gəlinin fındıqçası, hənası,
Həvəslənər anası, qaynanası.

31. Bakıçının sözü, sovu kağızı,
İnəklərin bulaması, ağızı,
Çərşənbənin girdəkanı, məvizi,
Qızlar deyər: "Atıl- matıl, çərşənbə,
Ayna təkin bəxtim açıl, çərşənbə".[2]

32. Yumurtanı göyçək, güllü boyardıq,
Çaqqışdırıb sınanların soyardıq,
Oynamaqdan bircə məgər doyardıq?
Əli mənə yaşıl aşıq verərdi,
İrza mənə növruzgülü dərərdi.

---

[1] - **Mirzəmməd- Mirzə Məhəmmədin** qısaldılmış şəklidir. Rəhmətlik bizim yaxın adamlarımızdan, işgüzar və qeyrətli bir kişi idi. Heydərbaba dağının ətəyində gözəl bir bağçası var idi. Mənə və yoldaşlarıma icazə vermişdi ki, bağçada nə istəyiriksə eləyək. Xatiri xoş olsun.

[2] - Azərbaycanda bir qayda olaraq çərşənbə günü sübhdən su üstündən atılıb bu xalq nəğməsini oxuyarlar:

**Bəxi- mən bəxti- səid bəxtim bərəkallah,**
**Ağ əllərə qırmızı həna yaxdım, bərəkallah,**
**Atıl- matıl çərşənbə,**
**Bəxtim açıl, çərşənbə.**

Necə ki, Tehranda çərşənbə bayramı axşamı od qalayıb üstündən atlanar və deyərlər:

**Zərdiye- mən əz to,**
**Sorxiye to əz mən.**

33.Novruzəli xərməndə vəl sürərdi,[1]
Gahdan yenib küləşləri kürərdi,
Dağdan da bir çoban iti hürərdi,
Onda gördün ulaq ayaq saxlardı,
Dağa baxıb qulaqların şaxlardı.

34.Axşam başı naxırçılar gələndə,[2]
Qoduqları çəkib vurardıq bəndə,
Naxır keçib gedib yetəndə kəndə
Heyvanları çılpaq minib qovardıq,
Söz çıxsaydı, sinə gərib sovardıq.

35.Yaz gecəsi çayda sular şarıldar,
Daş- qəyələr seldə aşıb xarıldar,
Qaranlıqda qurdun gözü parıldar,
İtlər, gördün, qurdu seçib ulaşdı,
Qurd da, gördün, qalxıb gədikdən aşdı.

36.Qış gecəsi tövlələrin otağı,
Kətlilərin oturağı, yatağı,
Buxarıda yanar odun yanağı,
Şəbçərəsi, girdəkanı, iydəsi,
Kəndi basar gülüb- danışmaq səsi.

---

[1] - “**Vəl”** sözü xırmandöyən alət mənasını verir. Təbrizdə ona “cırğır” deyirlər. Öküzü yaxud ulağı ona qoşub xırman döyürlər.

[2] - Kənd uşaqlarının əyləncələrindən biri bu idi: axşam çağı sürü çöldən qayıdanda qoduqları bir kənara çəkib gözləyirdilər ki, sürü bir az uzaqlaşsın. Sonra özlərini sürüyə çatdırmaq üçün tələsən qoduqlara minib çapıb, çavuşları yamsılayaraq hay- küy qaldırırdılar. Bəzən bu iş qoduq sahiblərinin etirazına səbəb olurdu. Necə deyərlər, özlərindən çıxardılar. Bu zaman uşaqlar nə cür olur- olsun özlərini müdafiə etməyə çalışırdılar.

37.Şüca xaloğlunun Bakı sovqəti,[1]
Damda quran samavarı söhbəti,
Yadımdadı şəstli qəddi, qaməti,
Cünəmməyin toyu döndü yas oldu,
Nənəqızın bəxt aynası kas oldu.

38.Heydərbaba, Nənəqızın gözləri,
Rəxşəndənin şirin- şirin sözləri,[2]
Türki dedim, oxusunlar özləri,
Bilsinlər ki, adam gedər, ad qalar,
Yaxşı- pisdən ağızda bir dad qalar.

39.Yaz qabağı gün güneyi döyəndə,
Kənd uşağı qar gülləsin sövəndə,
Kürəkçilər dağda kürək züvəndə,[3]
Mənim ruhum elə bilin ordadır,
Kəhlik kimi batıb qalıb, qardadır.

40.Qarı nənə uzadanda işini,
Gün buludda əyirərdi teşini,[4]
Qurd qocalıb çəkdirəndə dişini,
Sürü qalxıb dolayıdan aşardı,
Baydaların südü aşıb- daşardı.

---

[1] - **Şüca xaloğlu-** igid və gözəl bir cavan idi. Badkubə səfərindən pay- püşklə qayıtmışdı ki, öz nişanlısına toy eləsin. Pis musiqi aləti olmayan qarmanını yaxşı çalırdı. Axşamlar öz evlərinin damına palaz salıb samavar qaynadır, kənd cavanları ilə deyib gülürdü. Heyif ki, taleyi bir riqqətli kino pərdəsi kimi dəyişdi. Yazıq bəy olmamışdan yatalaq xəstəliyinə tutulub öldü, əfsanəvi nişanlısını kor və keçəllərə qoydu.
[2] - **Nənəqız** və **Rəxşəndə-** mənim qohumlarım və tay- tuşlarımdır.
[3] - Bayram günlərində şaxtalar sınıb uşaqlar qar- topu oynayanda canavar da dağın güneyində kürəklə sürüşməyə başlayırdılar. Bu, kənd xizək sürməyidir. Başgicəlləndirici uçuş kimi xüsusi bacarıq və vərdiş tələb edir. Oturmuş halda olduğundan, Avropa xizək sürməyindən daha rahat və xoşagələndir.
[4] - **Teşi**- bir növ sadə əl milidir. Ətdöyən (toxmaq- tərc) şəklindədir. Kiçik bir qarmağı var. kənd arvadları ağ yunu dizlərinin üstünə yığıb teşi ilə əyirirdilər. şerin bu bəndində buludlara dolaşmış günəş həmin teşiyə bənzədilir.

41.Xəccəsultan əmmə dişin qısardı,[1]
Molla bağır əmoğlu tez mısardı,
Təndir yanıb, tüstü evi basardı,
Çaydanımız ərsin üstə qaynardı,
Qovurğamız sac içində oynardı.

42.Bostan pozub gətirərdik aşağı,
Doldurardıq evdə taxta- tabağı,
Təndirlərdə bişirərdik qabağı,
Özün yeyib, toxumların çırtlardıq,
Çox yeməkdən lap az qala çatlardıq.

43.Vərziğandan armudastan gələndə,[2]
Uşaqların səsi düşərdi kəndə,
Biz də bu yandan eşidib biləndə,
Şıllaq atıb bir qışqırıq salardıq,
Buğda verib armudlardan alardıq.

[1] - Qışda sübh tezdən bibim təndir salıb evi yığışdırandan sonra təzədən kürsünü qurardı. Bunun üçün əvvəlcə lazım idi ki, hamını süpürgə ilə evdən çıxartsın. Bu isə biz tənbəllərə sərf eləmirdi. Xüsusən bibimin ərini yaşı keçdiyindən kürsünün başından qaldırmaq çox çətin idi. Buna görə də bacardıqca ayaqlarını yedə dirəyirdi. Onun dirənməsi bir tərəfdən də bibimdən qorxması, bibimin hirsindən dişlərinin qıcırdatması və həmin vaxt onların söyüşməsi çox gülməli və əyləncəli idi.

[2] - **Vərziğan**- o zaman bol meyvəsi ilə ad çıxarmış bir kəndin adıdır. Başqa kəndlərə də satmaq üçün bu kənddən meyvə aparılardı. Vərziğanlı armud satanın səsi gələndə uşaqların şadlığının həddi- hüdudu olmurdu. Xüsusən ona görə ki, alış- veriş üçün pul lazım deyildi; hər kəs bir ovuc buğda və ya arpa verməklə armud ala bilərdi.

44.Mirzə Tağıynan gecə getdik çaya,[1]
Mən baxıram seldə boğulmuş aya,
Birdən işıq düşdü o tay baxçaya,
"Eyvay,- dedik,- qurddu", qayıtdıq qaçdıq,
Heç bilmədik nə vaxt küllükdən aşdıq.

45.Heydərbaba, ağacların ucaldı,
Amma heyif, cavanların qocaldı,
Toxluların arıqlayıb acaldı,
Kölgə döndü, gün batdı, qaş qərəldi,
Qurdun gözü qaranlıqda bərəldi.

46.Eşitmişəm yanır Allah çırağı,
Dair olub məscidizin bulağı,
Rahət olub kəndin evi, uşağı,
Mənsur xanın əli- qolu var olsun,[2]
Harda qalsa, Allah ona yar olsun.

---

[1] - **Mirzə Tağı Bağırzadə** bibimin oğludur. Bir qış gecəsi çay, qırağında gedib ayın suda əksinə baxdıq. Ay batan adam kimi əl- qol atırdı. Şairlik təbim təzə- təzə çiçəklənəndə bir dəfə gördüm ki, çayın o tayında dağın ətəyində qaranlıqda iki od şöləsi parlayır. Bibim oğlu dedi: - Vay qurd! Zəhrim yarıldı. Qayıdıb qaçmağa başladım. Yolun bir hissəsi üzü yoxuş idi. Qorxudan süstləşmiş ayağlarımı güclə çəkirdim. Axırda rəngi qaçmış, əsə- əsə evə çatdıq. O gecə kürsü yorğanının altında da xeyli titrədim.

[2] - **Mənsur xan Vəfaiyan**- indi Tehranda yaşayır. Vəfalı uşaqlıq dostlarımdan biridir. Bir neçə il bundan qabaq vaxtını və vəsaitini sərf etməklə uçulub dağılmış məscid bulağını əsaslı təmir etmiş, xeyli savab qazanmışdır.

47.Heydərbaba, Molla İbrahim var, ya yox?[1]
Məktəb açar, oxur uşaq, ya yox?
Xırma üstü məktəbi bağlar, ya yox?
Məndən axunda yetirərsən salam,
Ədəbli bir salam- malakəlam.

48.Xəccəsultan əmmə gedib Təbrizə,[2]
Amma nə Təbriz ki, gələnmir bizə,
Balam, durun, qoyaq gedək evmizə,
Ağa öldü, tifağımız dağıldı,
Qoyun olan yad gedibən sağıldı.

49.Heydərbaba, dünya yalan dünyadı,
Süleymandan, Nuhdan qalan dünyadı,
Oğul doğan, dərdə salan dünyadı,
Hər kimsəyə hər nə verib alıbdı,
Əflatundan bir quru ad qalıbdı.

50.Heydərbaba, yar- yoldaşlar döndülər,
Bir- bir məni çöldə qoyub çöndülər,
Çeşmələrim, çıraqlarım söndülər,
Yaman yerdə gün döndü, axşam oldu,
Dünya mənə xərabəyi- Şam oldu.

---

[1] - **Molla İbrahim**- mənim müəllimimdir, doğrudan da fazil bir kişidir. Qırx beş yaşından mənim xatırlatdığım yerdə müəllim və məktəbdardır. Demək olar ki, bütün mahalın əhalisinin ümidi və dayağıdır. Hətta o ətrafın mülkədarları və torpaq sahiblərinin hamısı onun şagirdi olmuş və ona həmişə borcludurlar. Amma kimsədən yardım ummadan tam sərbəstlik və azadlıqla gah öz kiçik tarlasında çalışır, gah da pulsuz-parasız dərs verməklə məşğul olur.

[2] - Ailəmiz Təbrizdə olan müddətdə böyük bibim ildə bir dəfə Təbrizə gələrdi. Rəhmətlik atamdan sonra ailəmiz Tehrana köçdü. Hər dəfə bibimin Təbrizə getdiyini eşidəndə uşaqlar heyifslənmib deyirdilər ki, yazıq bibinin halı bizsiz necə olacaq? Şerin bu bəndində həmin hisslər təsvir olunmuşdur.

51.Əmoğluynan gedən gecə Qıpçağa,[1]
Ay ki, çıxdı, atlar gəldi oynağa,
Dırmaşırdıq, dağdan aşırdıq dağa,
Məş Məmixan göy atını oynatdı,[2]
Tüfəngini aşırdı şaqqıldattı.

52.Heydərbaba, Qərə kolun dərəsi,[3]
Xoşginabın yolu, bəndi, bərəsi,
Orda düşər çil kəhligin fərəsi,
Ordan keçər yurdumuzun özünə,
Biz də keçək yurdumuzun sözünə.

53.Xoşginabı yaman günə kim salıb?
Seyyidlərdən kim qırılıb, kim qalıb?
Amirqadar dam- daşını kim alıb?
Bulaq genə gəlib gölü doldurur?
Ya quruyub, baxçaları soldurur?

[1] - **Qıpçaq**- bir dağ kəndidir. Uşaqlıqda əmoğlum Mahmud Nurazərlə ora qonaq getmişdik. Bir neçə gün at minib gəzməklə məşğul olduq.
[2] - **Məş Məmixan-** hazırda polkovnikdir, bizim qonaqçımız idi.
[3] - **Qərə kol**- Heydərbaba dağının qoynunda bir dərənin adıdır. Qışqırşaq kəndini bizim ata- baba vətənimiz Xoşginabla birləşdirir.

54. Amirqafar seyyidlərin tacıydı[1]
Şahlar şikar etməsi qeyqacıydı,
Mərdə şirin, namərdə çox acıydı,
Məzlumların həqqi üstə əsərdi,
Zalımları qılınc təkin kəsərdi.

55. Mirmustafa dayı, ucaboy baba,[2]
Heykəlli, saqqallı, Tolstoy baba,
Eylərdi yas məclisin toy baba,
Xoşginabın abrusu, ərdəmi,
Məscidlərin, məclislərin görkəmi.

---

[1] - **Ağa Mir Qafar**- Təbrizdə və Tehranda tanınmış rəhmətlik Mir Şərifdən (rəhmətlik Müstəvfiül-məmalikin dostu) sonra Xoşkinabın ən hörmətli seyidlərindəndir. Xoşsifat, şirindil, Qonaqsevər, şücaətli seyidlərdən biri idi. Eyni zamanda lazım gələndə qılınc kimi kəskin və ciddi olurdu. Lətifə danışmağı və məclis aparmağı bir sənətkar kimi şah əsəri səviyyəsinə qalxmışdı. Bugünkü terminlə desək, əxlaqi0 komik pyeslər quraşdırır və bunlardakı bütün rolları özü ifa edirdi. Onun məclislərində heç kəs gülməkdən özünü saxlaya bilmir, qəşş edirdi. Məsələn, Nasirəddin şahın ölümündən sonra vəliəhd Müzəffərəddin şah Təbrizdən yola düşərkən o qədər (qəm- qüssəyə batıbmış ki, ixtiyarsız olaraq gözlərindən yaş axırmış. Saray əyanları şahın kefini açmaq üçün Ağa Mir Qafarı çağırtdırırlar. Seyid çatan kimi şahın atının cilovundan tutub məzə verməyə başlayır. İş o yerə çatır ki, şah gülməkdən bitab olub qışqırır ki, gəlin, məni Seyidin əlindən alın. Xoşginabdakı kiçik mülkünün gəliri ilə dolanırdı. Varlılardan nə alırdısa, kasıb- kusuba paylayırdı. Onun verdiyi pulların hesabına Xoşginabda adi kəndlilər belə şal və tirmə arxalıq geyirdi.

[2] **- Mir Mustafa dayı-** atamın dayısı rəhmətlik Mir Mustafa dayı iri cüssəli, hündür boylu, uzun saqqallı bir seyid idi. Xarici görkəmindən məşhur rus yazıcısı və filosofu Tolstoy, daxili aləmindən isə Firdovsiyə bənzəyirdi. Çoxlu həmasə şeri və qəhrəmanlıq dastanı bilir. Yeri gələndə oxuyurdu. Onun ciddi görkəmlə elədiyi adi söhbətlər hər kəsi gülürürdü. Onun ciddi görkəmlə elədiyi adi söhbətlər hər kəsi güldürən orijinal bənzətmələrlə dolu olardı. Məsələn, bir dəfə qoca bir qarının üzün burnunu xalqın gözlərini qaravula almış qoşalülə tüfəngə bənzətmişdi. Qəribə elmlərdən də məlumatı vardı və bayılma xəstəliyin pulsuz müalicə edirdi. Şəhərdə tanınmasa da, kənd yerində sayılan şəxslərdən biri idi.

56. Məcdus- sadat gülərdi bağlar kimi,[1]
Guruldardı buludlu dağlar kimi,
Söz ağzında ərirdi yağlar kimi,
Alnı açıq, yaxşı, dərin qanardı,
Yaşıl gözlər çıraq təkin yanardı.

57. Mənim atam süfrəli bir kişiydi,
El əlindən tutmaq onun işiydi,[2]
Gözəllərin axirə qalmışıydı,
Ondan sonra dönərgələr döndülər,
Məhəbbətin çıraqları söndülər.

---

[1] - **Məcidüs- sadat**- rəhmətlik Ağa Mir Ətaüddövlə igid və qədd- qamətli bir adam idi. Düz qaməıti, açıq alnı, mavi parlaq gözləri vardı. O da rəhmətlik Ağa Mir Qafar kimi tündxassiyyət, eyni zamanda məzhəkəçi və məclis bəzən idi. Musiqini çox sevirdi və uşaqlarını musiqi təhsili almağa həvəsləndirir. Qəzəbi mehribançılığı ilə qarışıq idi. Bir sözlə, Xoşginabın seçilən seyidlərindən idi.

[2] - Mənim atam rəhmətlik **Mir Ağa Xoşginabi**- xoşsifət bir seyid idi. İlk baxışdan əsil- nəsəbi və nəcabəti gözə çarpırdı. Orta boylu, gözəl bədənli, vuqarlı, şirin danışıqlı, nüfuzedici baxışlı idi. Çox səxavətli idi. Ailə üzvlərinin sayı 30- 40 nəfər olardı. Bərəkətli süfrəsi gecə- gündüz şəhərlinin- kəndlnin üzünə açıq olardı. Şer qoşması da vardı. Çox şer və musiqisevər, hər cür sənət növünə həvəsli idi. Yaxşı xətt yazırdı. İri yazıda rəhmətlik Xoşnevisbaşının, narın xəttə isə rəhmətlik Əmir Nizam Gərvəsinin şagirdi olmuşdu. Adətən çox səbirli və yumşaqxasiyyət olsa da nadir hallarda həm də çox əsəbləşər və qəzəblənərdi. O zaman başının və üzünün tükləri qabarar, gözləri qızarardı. Məşğul olduğu hüquq və məhkəmə işlərində çox dərin idi. Əksər davaları sülh və barışıqla başa çatdıra bilirdi. Günahı olan çox pullu müttəhimi rədd etmiş, əksinə günahsız müttəhimləri pulsuz qəbul edərək hətta mənzil xərclərini də öz cibindən vermişdi.

Doğrudan da, bütün ömrünü məzlumların hüququnu müdafiəyə sərf etmişdi. Zahirən hamı ilə ünsiyyətdə olsa da, daxilən çox dindar və çəkingən idi. Dövrünün alimləri yanında sözü dəlil gücündəydi. Yadımda qaldığına görə, Xoşginabın seyidlərindən iki nəfəri çox dindar və pak idi: birincisi, Təbriz xiyabanının sakini rəhmətlik hacı Mir Əli Xoşnigabi doğrudan çox övliya adam idi və onun adı mənim uşaqlıq şerlərimdə çəkildiyi üçün xəcalət çəkirəm. İkincisi, Allah hamının ölənlərinə rəhmət eləsin, mənim atam idi. Neçə dəfə Allahdan arzu eləmişdi ki, Qədr gecəsində vəfat eləsin. Eləcə də oldu. 1313- cü şəmsi ilində, Ramazan ayının 23- ü gecəsi əhya gecələri mərasimindən sonra sübh əzanına iki saat qalmış, dodağında təbəssüm dünyadan köçdü. O gecə mən Xorasan yaylığının kəndlərindən birində idim. Yuxuda gördüm ki, atam üzü aya tərəf hərəkət etməkdədir. Ay işığı üzünü və sinəsiini nura qərq etdiyi halda da qəhqəhə ilə gülürdü və qəhqəhəsi üfüqlərə yayılırdı. Oyananda qoca kəndli dedi: "Allahu Əkbər". Sübh əzanı idi. Çırağı yandırıb qəmgin halda hafiz "Divan"ından fal açdım. Bir qəzəl gəldi ki, təəccüblü olsa da, o gecəyə qədər gözümə sataşmamışdı:

**Ruze hicran o şəbe- ferqəte- yar axər şod,**
**Zədəm in fal o qozəşt əxtər o kar axer şod,**
**Bəd öz in nur be afaq dəhəm öz dele- xiş,**
**Ke be xurşid residim o ğobar axər çod.**

(Yarın hicran günü və ayrılıq gecəsi qurtardı
Bu falı açdım, ulduz keçdi, iş qurtardı.
Bundan sonra öz ürəyimdən üfüqlərə nur verəcəyəm
Çünki günəşə çatdıq və toz- torpaq qurtardı.)

İki gün sonra atamın vəfatı haqqında teleqram gəldi.

58.Mir Salehin dəlisovluq etməsi,[1]
Mir Əzizin şirin "Şaxsey" getməsi,[2]
Mir Məmmədin qurulması, bitməsi,[3]
İndi desək, əhvalatdı, nağıldı,
Keçdi- getdi, itdi- batdı, dağıldı.

59.Mir Əbdülün aynada qaş yaxması,[4]
Cövcülərindən qaşının axması,
Boylanması, dam- divardan baxması,
Şah Abbasın durbini, yadış bexeyr,[5]
Xoşnigabın xoş günü, yadəş bexeyr.

60.Sitarəmmə nəzikləri yapardı[6]
Mir Qadir də hər dəm birin qapardı,[7]
Qapıb, yeyib, dayça təkin çapardı,
Gülməliydi onun nəzik qappası,
Əmməmin də ərsininin şappası.

---

[1] - Rəhmətlik **Ağa Mir Saleh**- yaxşı xətti var idi. Qılıqlı, sadə və səmimi bir insan idi. Söhbətində elə duzluluq və hissiyyat var idi ki, zarafatla deyərdilər ki, səfehliyi tutub.

[2] - Rəhmətlik **Ağa Mir Əziz**- enlikürək, qüvvətli, mütənasib bədənli bir adam idi. "Şah Hüseyni" dəstələri təşkil olunanda o həmişə dəstəbaşı olardı. Çünki gözəl səsi və xüsusi baz- burutu ilə o sanki bu iş üçün yaranmışdı.

[3] - Rəhmətlik **Ağa Mir Möhsün**ün oğlu rəhmətlik **Ağa Mir Məhəmməd**- **Ağa Mir Möhsün** at minən, atıb-tutan, igid bir adam idi. Hal əhllərinin dediyinə görə, söhbət zamanı **Ağa Mir Məhəmməd** köklənən saz kimi yavaş- yavaş qızışar və ağzı köpüklənə- köpüklənə rəcəz deməyə başlarmış.

[4] - Rəhmətlik **Ağa Mir Əbdülxaliq**- kiçik bibimin əridir. Cavanlıqda məzəli işləri var idi. Məsələn, arvadları yamsılayaraq vəsmə çəkər, başına çadra örtər, naz- qəmzə ilə divar dalından boylanıb cavanlarla baş- başa verərdi. Bu hekayə mənim ən şirin xatirələrimdən biri kimi Xoşginabda keçirdiyim xoş günlərin yadigarədər.

[5] - **Şah Abbasın durbini-** məşhur rəvayətə görə Cəmşidin bir camı vardı ki, hər şeyi orada görürdü. Şah Abbasın durbini də xüsusən Azərbaycan kəndlərində məşhurdur. Bu cəhətdən Şah Abbas haqqında çox şirin nağıllar var, özü də bu nağıllarda durbin çox işlər görür.

[6] - **Sitarə bibi**- yaşlarına uyğun olaraq mənim dörd bibim vardı: birinci **Xədicə Soltan**, ikinci **Sitarə,** üçüncü **Sara əmməcan**, dördüncü **Səyyarə** (Xanım əmmə). İlk üçü Allahın rəhmətinə gedib.
**Nəzik**- Təbrizin özündə nazik deyirlər. Bir növ yumru kənd çörəyidir. Laylarının arasına qoyulan ləzzətli iç ilə çox yeməli olur.

[7] - **Mir Qadir**- bibimin oğludur.

61.Heydərbaba, Amirheydər neyniyir?[1]
Yəqin ginə samavarı qeyniyir?
Day qocalıb, alt əngiynən çeynəyir,
Qulaq batıb, gözü girib qaşına,
Yazıq əmmə, hava gəlib başına.

62.Xanım əmmə Mir Əbdülün sözünü,
Eşidəndə əyər ağız, gözünü,
Məlkamıda verər onun özünü,[2]
Davaların şuxluğundan qatallar,
Əti yryib, başı atıb yatallar.

63.Fizzə xanım Xoşginabın gülüydü,[3]
Amiryəhya əmqızının quluydu,[4]
Ruxsarə artist idi, söygülüydü,[5]
Seyid Hüseyn Mir Salehi yamsılar,[6]
Amircəfər qeyrətlidi, qan salar.[7]

---

[1] - **Ağa Mir Heydər**- bibimin əridir. İndi 80 yaşlı qocadır, işdən- gücdən qalıb, ağlı- başı yerində olanda şirin zarafatlar edərdi. O zarafatlar indi də bizim qohumlar arasında məşhurdur. Əli və ürəyi açıq bir kişi idi. Gedib- gələni çox idi. Samavarı həmişə qaynayardı, çay içməkdə həddini aşardı.

[2] - **Mələk aməd**- "Mələk- əl- mövt" sözünün qısaldılmış şəklidir ki, kəndlərdə mürdəşir sözünün əvəzinə işlənir.

[3] - **Fizzə xanım**- atamın dayısı qızıdır. Cavanlığında gözəgəlimli və Xoşginab seyidlərinin hörmətlilərindən idi.

[4] - **Ağa Mir Yəhya**- Rəhmətlik **Məcidüs- Sadatın** qardaşı və rəhmətlik Ağa Mir Mustafanın ikinci oğludur. Açıqürəkli, sadə və səmimi bir adamdır. Hamısı şerləri, xüsusən "*Şahnamə*"ni çox sevir və əzbərdən deyir. Bu xüsusiyyəti rəhmətlik atasından irs alıb.

[5] - **Ruxsarə xanım**- atamın xalası qızı, hörmətli seyidlərdəndir. Hazırda Tehranda yaşayır. Təqlid baxımından sənətkarlıq və artistlik məharətinə malikdir.

[6] - **Ağa Seyid Həsən**- bizim möhtərəm əmoğlanlarımızdandır. Çox tərbiyəli, söhbətcil, nəcib insandır. Otuz ildən bəri Şəqaqilər ailəsi ilə bağlanıb və Qınaq kəndində yaşamağa qərar verib.

[7] - Rəhmətlik **Ağa Mir Cəfər**- rəhmətlik Ağa Mir Qafarın böyük oğludur. İşgüzar, cəsur və qoxzmaz bir adam idi. Amma əli ağır idi. Kənddə baş verən zarafatlarda iştirak etsə idi, iş xətərsiz qurtarmazdı.

64.Səhər tezdənnaxırçılar gəlrdi,
Qoyun- quzu dam- bacada mələrdi,
Əmməcanım körpələrin bələrdi,
Təndirlərin qabzanardı tüstüsi,
Çörəklərin gözəl iyi, istisi.

65.Göyərçinlər dəstə qalxıb uşarlar,
Gün saçanda qızıl pərdə açarlar,
Qızıl pərdə açıb, yığıb qaçarlar,
Gün ucalıb, artar dağın cəlalı,
Təbiətin cavanlanar cəmalı.

66.Heydərbaba, qarlı dağlar aşanda,
Gecə karvan yolun azıb, çaşanda,
Mən hardasam, Tehranda, ya Kaşanda,
Uzaqlardan gözüm seçər onları,
Xəyal gəlib, aşıb keçər onları.

67.Bir çıxaydım damqəyənin daşına,[1]
Bir baxaydım keçmişinə, yaşına,
Bir görəydim nələr gəlib başına,
Mən də onun qarlarıynan ağlardım,
Qış donduran ürəkləri dağlardım.

68.Heydərbaba gül qönçəsi xəndandı,
Amma heyif, ürək qəzası qandı,
Zindəganlıq bir qaranlıq zindandı,
Bu zindanın dərbəçəsin açan yox,
Bu darlıqdan bir qurtulub qaçan yox.

---

[1] - **Damqəyə**- əzəmətli bir qayadır. Ancaq budağı kimi dağdan ayrılıb, əyilib. Altında otaq boyda bir yer düzəldib ki, qışda və yayda yol keçənlərin, çobanların sığınacağı olur. Uşaqlar da bəzən onun damının üstünə çıxıb ətraddakı əngilliklərin tamaşasından həzz alırlar (Damqəyə dağın döşündə, dərənin üstündə, **Şəngilabad** və **Güllücə** kəndlərinin arasındadır).

69. Heydərbaba, göylər bütün dumandı,
Günlərimiz bir- birindən yamandı,
Bir- birizdən ayrılmayın, amandı,
Yaxşılığı əlimizdən alıblar,
Yaxşı bizi yaman günə salıblar!

70. Bir soruşun bu qarğınmış fələkdən,
Nə istəyir bu qurduğu kələkdən?
Deynə, keçirt ulduzları ələkdən,
Qoy tökülsün, bu yer üzü dağılsın.
Bu şaytanlıq qurğusu bir yığılsın!

71. Bir uçaydım bu çarpınan yelinən,
Bağlaşaydım dağdan aşan selinən,
Ağlaşaydım uzaq düşən elinən,
Bir görəydim ayrılığı kim saldı?
Ölkəmizdə kim qırıldı, kim qaldı?

72. Mən sənindək dağa saldım nəfəsi,
Sən də qeytər, göylərə sal bu səsi,
Bayquşun da dar olmasın qəfəsi,
Burda bir şir darda qalıb bağırır,
Mürüvvətsiz insanları çağırır.

73. Heydərbaba, qerət qanın qaynarkən,
Qaraquşlar səndən qopub qalxarkən,
O sıldırım daşlar ilə oynarkən,
Qovzan, mənim himmətimi orda gör,
Ordan əyil, qamətimi darda gör.

74.Heydərbaba, gecə durna keçəndə,
Koroğlunun gözü qara seçəndə,[1]
Qıratını minib, kəcib- biçəndə,
Mən də bundan tez mətləbə çatmaram,
Eyvaz gəlib çatmayınca yatmaram.

75.Heydərbaba, mərd oğullar doğginən,
Namərdlərin burunların ovginən,
Gədiklərdə qurdları tut boğginən,
Qoy quzular ayın- şayın otlasın,
Qoyunların quyruqların qatlasın.

76.Heydərbaba, sənin könlün şad olsun,
Dünya varkən ağzın dolu dad olsun,
Səndən keçən tanış olsun, yad olsun,
Deynə mənim şair oğlum Şəhriyar,
Bir ömürdür qəm üstünə qəm qalar.

77.Heydərbaba, yuxum çıxdı doğruma,
Gül dəstəsin aldım, basdım bağrıma.
İsa gəldi əlin basdı ağrıma,
Ayrılığın dığı çıxdı canımdan,
Cəllad dünya keçdi mənim qanımdan.[2]

---

[1] - Şeirin bu bəndində Koroğlu hekayəsinə işarə edilmişdir. Demək istəyir ki, o zaman Koroğlu dastanını oxuyursunuz mən də buradan qulaq verməkdəyəm. Dastan axıra çatmayınca məni yuxu aparmaz. Azərbaycanın bəlkə bütün dünyanın ən məşhur qəhrəmanlıq hekayəsi olan "Koroğlu" dastanının qısa xülasəsi belədir:
Dastanın qəhrəmanı Koroğlu öz oğlu Eyvazı döyüşə göndərir. Gün batana qədər Eyvaz qayıtmır. Koroğlu gecənin zülmətində ora-bura baxa-baxa, hər qaraltıdan ümidə düşə-düşə gah yeldən, gah durna qatarından oğlunu soraqlayır. Gecəni bir təhər səhər eləyib, tez Qırat adlı əfsanəvi atına minərək döyüşə gedir. Düşməni məğlub edib, əsir düşmüş oğlunu qurtarır. Eyvazın qayıtması ilə dastan bitir.
[2] - Ustad M.Şəhriyar bir gün "Heydərbaba" poemasını Kərəcdə qurulmuş bir məclisdə oxuyaraq:
Uşaqların bir dəstə gül bağlasın,
Yel gələndə ver gətirsin bu yana.
bəndinə çatarkən, bir uşaq əlində gül dəstəsi Şəhriyara yaxınlaşmış və oradaca bədahətən bu bəndi demişdir. (Ə.Fərdi).

## İkinci hissə

**1**

Heydərbaba, gəldim səni yoxlayam,
Bir də yatam, qucağında yuxlayam,
Ömrü qovam, bəlkə burda haxlayam,
Uşaqlığa deyəm: bizə gəlsin bir,
Aydın günlər, ağlar üzə gülsən bir!

**2**

Heydərbaba, çəkdin məni gətirdin,
Yurdumuza, yuvamıza yetirdin,
Yusifivi uşaq ikən itirdin,
Qoca Yəqub, itmişsəm də tapıbsan,
Qovalayıb qurd ağzından qapıbsan.

**3**

Gedənlərin yeri burda görünür,
Xanım nənəm ağ kəfənin bürünür,
Dalımcadır, hara gedim sürünür:
Bala, gəldin? Niyə belə gec gəldin?
Səbrim sənlə güləşdi, sən güc gəldin.

**4**

Burda düşən karvan çatıb köçübdü,
Ayrılığın şərbətini içibdi,
Ömrümüzün köçü burdan keçibdi,
Keçib gedib gedər- gəlməz yolllara,
Tozu qonub bu daşlara, kollara.

**5**

Burda şirin xatirələr yatıblar,
Daşlarıylan başı başa çatıblar,
Aşnalığın daşın bizdən atıblar.
Mən baxanda qovzanıllar, baxırlar,
Bir də yatıb yandırıllar, yaxıllar.

**6**

Qəbiləmiz burda qurub ocağı,
İndi olmuş qurd- quşların yatağı,
Gün batanda sönər bütün çırağı,
"Və bəldətin leysə ləha ənisu,
İlləl yəafirə və illəl- isu".

**7**

Zaman keçir, üfüqlərdə toz qalır,
Karvan kimi uzaqlarda toz salır,
Duman gəlir, ürəkləri çulğalır.
Ürək deyir: Zaman, keçmə, amandır!
Keçənlərdə gözüm var, bir dayan, dur!

**8**

Ruzigarın dəyirmanı fırlanır,
Məxluq onun dişlərinə, tullanır,
Bax ki, yenə bəşər necə Allanır,
Həmişəlik şadlıq umur özünə,
Qəbri görür, toz qondurur üzünə.

**9**

Köhnələrin sür- sümügü dartılıb,
Qurtulanın çul- çuxası yırtılıb.
Molla İbrahim lap əriyib, qurtulub,
Şeyxül- İslam səhman qalıb, qıvraxdır,
Novruzəli qaçaq keçib, qoçaxdır.

**10**

Ahəlların yetmiş kəfən çürüdüb,
Cahəlları dünya qəmi kiridib,
Qız- gəlinlər ət- canların əridib,
Rəxşəndənin nəvə tutur əlini,
Nənəqızın kürəkəni, gəlini.

**11**

Çox şükür var, genə gəldik görüşdük,
İtənlərdən, bitənlərdən soruşduq,
Küsmüşdük də, Allah qoysa, barışdıq,
Bir də görüş qismət ola, olmaya,
Ömürlərdə fürsət ola, olmaya.

**12**

Burda xəyal meydanları genişdi,
Dağlar, daşlar bütün mənlə tanışdı,
Görcək məni Heydərbaba danışdı:
Bu nə səsdi, sən aləmə salıbsan,
Gəl bir görək, özün harda qalıbsan?

**13**

Cəcavəylə bu çaydan çox keçmişik,
Bu çeşmələrdən nə sular içmişik,
Bu yoncalıqlarda kəsib- biçmişik,
Çəpişləri qıdıqlayan günlərim,
Çəpiş kimi oynaqlayan günlərim.

**14**

Bu xırmanda "aradanxır" oynardıq,
Comalaşıb qarışqatək qaynardıq,
Yavaş- yavaş baxçalarda ağnardıq,
Ağaclardan çiling- ağac kəsərdik,
Qoruqçunun qorxusundan əsərdik.

**15**

Bu tövlədə sarı inək doğardı,
Xanım nənəm inəkləri sağardı,
Ana iysi dam- divardan yağardı,
Mən buzovu qucaqlardım qaşmasın,
Deyərdi:- Bax, badya dolsun daşmasın.

**16**

Bu damlarda çoxlu çızıq atmışam,
Uşaqların aşıqların utmuşam,
Qurquşunlu saqqa alıb satmışam,
Uşaq necə hüç zadınan şad olar!
İndi bizim qəmi tutmur dünyalar.

**17**

Məktəb qalır, uşaqlar dərs alırlar,
Hey yazırlar, hey pozurlar, yalırlar,
Molla İbrahim özü, evi qalırlar,
Amma bizim yoldaşlardan qalan yox,
Bunlardan bir bizi yada salan yox.

**18**

Bir vaxtında bu məktəb pərgar idi,
Bir Müseyyib, bir Məmdəsən var idi.
Biri xəlfə, bir vərzişkar idi,
Axund bizlə oynamağa gedərdi,
Özü bizə oynamaq öyrədərdi.

**19**

Dedim:- Balam o Məmdəsən nolubdur?
Məlum oldu tifil bala ölübdür,
Nə var, nə var, burnundan qan gəlibdir,
Bir yel əsir, baxırsan Məmdəsən yox,
Bu kənddə bir burun qanı kəsən yox!

**20**

Dedim:- Deyin Müsüyyibə nə gəldi?
Qulam, gördüm, ağlar göz ilə gəldi,
Dedi: o da bahalıq düşdü, öldü.
Dedim, yazıq bizlə hasıl bölənlər,
Bitməyəndə aclarından ölənlər.

**21**

Bu məktəbdə şerin şəhdin dadmışam,
Axunun ağzından qapıb udmuşam,
Gahdan da bir axundu aldatmışam,
Başım ağrır- deyib, qaçıb getmişəm,
Baxçalarda gedib gözdən itmişəm.

**22**

Azad olanda məktəbdən çıxardır,
Hücumla bir- birmizi sıxardıq,
Yolda hər nə gəldi, vurub yıxardıq,
Uşaq demə, ipin qırmış dana de,
Bir dana da demə, əlli dana de.

**23**

Məlikniyaz itkin gedib yox olub,
Mir Aslan xan səktə edib yıxılıb,
Hərə qaçıb bir dərədə sıxılıb,
Çörək qəmi çıxıb xalqın ayına,
Hər kəs qalıb öz canının hayına.

**24**

Kəndli yazıq çırağ tapmır yandıra,
Görüm sizin bərqiz qalsın andıra,
Kim bu sözü ərbablara qandıra:
Nədir axır bu millətin günahı?
Tutsun görüm, sizi məzlumlar ahı!

**25**

Hər nə alır baha verir qiyməti,
Ucuz fəqət əkinçinin zəhməti,
Bitənindən artıq biçən ücrəti,
Kənd uşağı gedir yolda işləyə,
Orda bəlkə qəndi tapa dişləyə.

**26**

Kəndli gəlin kimi dünyanı bəzər,
Öz övrəti yamaq- yumağa düzər,
İynə bəzər xalqı, özü lüt gəzər,
İndi də var çarşabları albaxdı,
Uşaqların qıç- paçası çılpaqdı.

**27**

Bu baxçada aş tərəsi əkərdik,
Hey su açıb kərdiyə göz dikərdik,
Çıxmaq həmin dərib aşa tökərdik,
Fınqılışlar qaşıqlardan aslanı,
Yağlı desəm, quru ağzın islanı.

**28**

Bu döşlərdə quzuları yayardıq,
Axmasınlar ulduz təkin, sayardıq,
Quşqovanı çəkib daşa dayardıq,
Quşqovan da rlə bil ki, çobandı,
Qurd uzaqdan deyər bəs ki, çobandı.

**29**

Xanım nənəm naxoş olan il idi,
Qış var ikən külək idi, yel idi,
Qış da çıxdı, yağış idi, sel idi,
Yük- yapını hey çatırdıq ki, gedək,
Sel küşkürdü məcbur idik qeyidək.

**30**

Neysan düşdü, biz də düşdük yağışa,
Hey deyirdik, bəlkə yağış yağışa,
Kim başarar sellər ilə boğuşa?
Balakişi faytonçumuz gəlmişdi,
"İmamiyyə" qəhvəsində qalmışdı.

**31**

Bu zəmidə gedib gözdən itərdik,
Tonqal qurub sütülləri ütərdik,
Deyib, gülmək muradına yetərdik,
El də gülsün, muradına yetişsin,
Ürəklərin yaraları bitişsin.

**32**

Xəlvərçilər burda xəlvər daşırdı,
Bu küllükdən ulaqlar dırmaşırdı,
Sellər kimi nemət aşıb- daşırdı,
Hər iş dedin hər kimsəyə görərdi,
Can dərmanı istəsəydin verərdi.

**33**

Heydərbaba, səndə dəfinələr var,
Dağlar vədiəsi xəzinəsi var,
Amma sənə bənzər də sinələr var,
Bu sinələr dağlar ilə danışır,
Dağlar kimi göylər ilə qonuşur.

**34**

Gör hardan mən sənə saldım nəfəsi,
Dedim qaytar sal aləmə bu səsi,
Sən də yaxşı simurq etdin məgəsi,
Sanki qanad verdin yelə, nəsimə,
Hər tərəfdən səs verdilər səsimə.

**35**

Heydərbaba, səni vətən bilmişdim,
Vətən deyib, baş götürüb gəlmişdim,
Səni görüb göz yaşımı silmişdim,
Halbuki, lap qəmli qürbət səndəymiş,
Qara zindan, acı şərbət səndəymiş.

**36**

Kim qaldı ki, bizə buğun burmadı,
Altdan- altdan bizə kələk qurmadı,
Bir mərd oğul bizə havar durmadı,
Şeytanları qucaqlayıb gəzdiz siz,
İnsanları ayaqlayıb əzdiz siz.

**37**

Divar ucaldı, gün bizə düşmədi,
Zindan qaraldı, göz- gözü seşmədi.
Gündüz gözü mənim lampam keşmədi,
Sel də basdı, emmiz dolub göl oldu,
Çox yazığın evi çönüb çöl oldu.

**38**

Əvvəl başı məndən istiqbal etdiz,
Sondan çönüb işimdə ixlal etdiz,
Öz zənnizcə ustadı iğfal etdiz,
Eybi yoxdur, keçər gedər ömürdür,
Qış da çıxar üzüqara kömürdür.

**39**

Mənim yolum məhəbbət caddəsiydi,
Son sözlərim haqqın iradəsidi,
Məhəbbətin risalət vədəsiydi,
Yoxsa məndə bir kəs ilə qərəz yox,
Siyasət adlı məndə bir mərəz yox.

**40**

Haqq nə deyir?- Küfrə qarşı getməyiz,
Nurdan çıxıb zülmət içrə itməyiz,
Fırıldağa fırfıratək bitməyiz,
Gördüz də ki, olmadı küfrün dibi,
Pul da versə, almağa timiş cibi.

**41**

Şeytan bizim qibləmizi çöndərib,
Allah deyən yoldan bizi döndərib,
İlanlı çeşməyə bizi göndərib,
Minnət qoyur ki, arxınız nəhr olub,
Biz görürük sular bizə zəhr olub.

**42**

Heydərbaba, gileylikdən nə çıxar?
Zülmün evin səbrü təhəmmül yıxar,
Dərviş olan səbrin əlin bərk sıxar,
Gəl qayıdaq, çıxaq Ağa düzünə,
Keçək yenə məhəbbətin sözünə.

**43**

Deynə, uşaq bir- birilə saz olsun,
Bəlkə bu qış bir də çönüb yaz olsun,
Çay, çəmənlər ördək olsun, qaz olsun,
Biz də baxıb fərəhlənib bir uçaq,
Sınıq- salxaq qanadları bir açaq.

**44**

Bu baxçadan alçaları dərərdik,
Qış adına çıxıb damda sərərdik,
Hey də çıxıb yalandan çöndərərdik,
Qış zumarın yayda yeyib doyardıq,
Bir külli də minnət xəlqə qoyardıq.

**45**

Evlər qalır, ev sahibi yox özü,
Ocaqların ancaq işıldar közü,
Gedənlərin az- çox qalıbdır sözü,
Bizdən də bir söz qalacaq, ay aman!
Kimlər bizdən söz salacaq, ay aman!

**46**

Bizdən sonra kürsülərin tovunda,
Kəndin nağıllarında, söz sovunda,
Qarı nənənin çaxmağında, qovunda,
“Heydərbaba” özün qatar sözlərə,
İçki kimi xumar verər gözlərə.

**47**

Aşıq deyər: bir nazlı yar var imiş,
Eşqindən odlanıb yanar var imiş,
Bir sazlı sözlü Şəhriyar var imiş,
Odlar sönüb, onun odu sönməyib,
Fələk çönüb, onun çarxı çönməyib.

**48**

Heydərbaba, alçaqların köşk olsun,
Bizdən sonra qalanlara eşq olsun,
Keçmişlərdən gələnlərə məşq olsun.
Övladlarımız məzhəbini danmasın,
Hər içiboş sözlərə adlanmasın!